## *TƏQVİMDƏN*



## *SEYFƏDDİN RZASOY - 60*

# ŞƏRQ RUHLU VƏ QƏRB TƏFƏKKÜRLÜ ALİM: SEYFƏDDİN RZASOY

Dünyada zaman-zaman təkrarlanan belə bir fəlsəfi sual var: görəsən insanın əsas missiyası nədir?

Məlumdur ki, hər bir insan müəyyən zaman kəsimində və bəlli bir məkanda dünyaya gəlir. Bu, onun taleyi, qismətidir. İnsan öz taleyi, qisməti ilə barışmalı və bacardıqca mühitinə uyğunlaşmalıdır.Digər tərəfdən, hər bir insan həm də dünyaya müəyyən bir missiya ilə gəlir. Bu missiya isə insanın həyatda keçməli olduğu yolu, eləcə də onun məqsəd və vəzifələrini xarakterizə edir. Başqa sözlə, insan taleyinə yazılmış müəyyən bir missiyanı, tapşırığı yerinə yerinə yetirmək üçün dünyaya gəlir. Bu missiya kimlərdəsə xeyirxah və uğurlu, kimlərdə isə, təəssüf ki, bədxah və uğursuz bir formada olur. Xeyirxah missiyalı insan əgər yaşadığı mühitinin ürəyincə deyilsə, onu öz missiyasına uyğun şəkildə, ən azı,qismən dəyişdirmək kimi çətin bir yola qədəm qoymalıdır. Bu yol isə çox vaxt asan olmayıb, insana müəyyən məhrumiyyətlər hesabına başa gəlir və sonda onun daxilindən gələn işıqla, nurla aydınlaşır. Bu halda mühitə qarşı dayana biləcək, ona alternativ ola biləcək yeganə mənbə insanın daxili potensialı, mənəvi aləmi olur. Ancaq bunun da fərqinə varmalıyıq ki, insanın daxili aləminin özü ətraf mühitin təsiri ilə formalaşır. Bu formalaşma isə yaradıcılıqla, yazılan əsərlərlə, görülən gərəkli işlərlə, xeyirxah, uğurlu əməllərlə özünü göstərir, bu və ya digər şəkildə təzahür edir. Deməli, xeyirxah missiyalı insanlar bu dünyaya sanki onu müsbət yönə doğru dəyişdirmək üçün gəlirlər. Onlar təkcə özləri üçün çalışmır, həm də mühiti, cəmiyyətimüsbət istiqamətə dəyişmək, onu daha da təkmilləşdirmək üçün çalışır, lazım bildikləri insanları xeyirxah əməllərə yönəltmək onlara əllərindən gələn köməyi edirlər.

Ötən əsrin 80-ci illərində elm aləmində öz imzası ilə görünməyə başlayan, dərin, orijinalelmi potensialını elə ilk məqalələrində, elmi əsərlərindəortaya qoyan Seyfəddin Rzasoy elm aləminə məhz bu xeyirxah, uğurlu, eyni zamanda iddialı birmissiya ilə gəldi. Bunun üçün onda zəngin daxili potensial da vardı, istedad da, əzmkarlıq da. Amma o, bu aləmin gedişatını görüb duyduğu üçün, onu əsaslı şəkildə dəyişdirməyin də mümkünsüzlüyünü bilirdi. Lakin bütün bunlara baxmayaraq, Seyfəddin Rzasoy elm aləmində öz sözünü dedi, onun daha da inkişafına böyük töhfələr bəxş etdi.

Mənim 21 il müddətində yaxından tanıdığım, insanlığına, elmi potensialına və fitri istedadına dərindən bələd olduğum, AMEA Folklor İnstitutu Mifologiya şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor S.Rzasoy,qeyd etdiyim kimi, dünyaya xeyirxah missiya ilə gələn insanlardandır. Mən onu tanıyandan mənəvi baxımdan klassik bir Şərqli, təfəkkür tərzi baxımından isə bir Qərbli kimi qəbul etmişəm. Mənə elə gəlib ki, o, xarakteri baxımından ailə münasibətlərində və məişət məsələlərində Şərq ruhunu özündə yüksək səviyyədə təcəssüm etdirən klassik bir şərqli, digər tərəfdən, müasir Qərb mədəniyyətinə bələd olan, orijinal düşüncə, dərin təfəkkür tərzi baxımından isə bir müdrik bir Qərblidir.

İnsanla təbiət arasındakı adekvatlıq xüsusilə Şərq ruhu üçün səciyyəvidir. Bu ruh daha çox təbii gözəlliyə vurğunluğu və təbiətin məhz təbiilik məqamını, sonradan dəyişdirilməmiş doğalvəziyyətini özündə ehtiva edir. Qərb təfəkkürü isə daha çox sivilizasiya ilə bağlı olduğundaninsan ruhu ilə təbiətin ahəngiarasında müvazinətin pozula biləcəyindən ehtiyat etmək şəklində üzə çıxır və onu önəmli bir hala gətirir. Seyfəddin Rzasoy hər iki düşüncə tərzini özündə birləşdirən bir alim, nadir zəka sahibidir.

Seyfəddinlə konkret olaraq ilk dəfə hansı şəraitdə tanış olduğumu tam xatırlamıram. Ancaq onunla tanışlıqdan az sonra mənə elə gəldi ki, sanki mən onu elə bu dünyaya gəldiyim gündən tanıyıram. Özü də, ətraflı, kifayət qədər, bəlkə də, qədərindən çox tanıyıram. Seyfəddin müəllimin gözəl dost, alicənab insan, böyük ziyalı, ensiklopedik biliyə sahib olan bir alim və əsl bir vətəndaş olduğunu da dəqiq bilirəm. Onu da yaxşı bilirəm ki, S.Rzasoy çox xeyirxah, şən təbiətli, səmimi, dosta dost, düşmənə də düşmən olan bir insandır. Onun ürək dostlarına gözəl, insani münasibətini görəndə həmişə bu məşhur fikri xatırlamışam: "*Həqiqi dostlar ulduzlar kimidir: qaranlıq çökdükdə həyatımızda öncə onlar parlayar və bizim üçün işıq olarlar. Vəfasız dostlar isə kölgəyə bənzərlər: günəşli havada səni izləyər,buludlu havada isə gözdən itərlər...*"

Seyfəddin müəllimdə çox adamda olmayan bir qabilyyət – onun hər kəslə elə onun öz dilində danışmaq və davranmaq istedadı da var. Onu tanıdığımızun

illər ərzində heç bir kəsin ondan incidiyini görməmişəm. Nəhayət, S. Rzasoy oxuduğu elmi, bədii, eləcədə publisistik əsərlərdə hiss etdiyi, duyduğu işıqlı, uğurlu bir cəhəti daha böyük şəkildə görməyə və onu oxuculara daha əzəmətli, daha dolğun şəkildə təqdim etməyə çalışan nadir elm adamlarımızdandır.Elə Xalq şairimiz Səməd Vurğun kimi...

**Haşiyə:** 1947-ci ilin payızında Səməd Vurğunla Mirzə İbrahimov Qazax rayonunun Daş Salahlı kəndinə ova gedirlər. Yolboyu onlar çöllərə, tarlalara heyranlıqla tamaşa edirlər. Birdən Səməd Vurğun Mirzə İbrahimova: “Ayə, ora bax, ora bax, göylərə baş çəkən Göyəzən dağı budur”, – deyə fəxrlə, sevinclə qələm dostuna Göyəzən dağını göstərir. Mirzə İbrahimov deyir: “Ay Səməd, şeirində “Göylərə baş çəkən Göyəzən dağı” oxuyanda elə bilmişdim ki, Göyəzən dağı Şahdağından, Elburusdan ucadır. Bu ki, təpə imiş...” Səməd Vurğun dərhal hazırcavablıqla M.İbrahimova deyir: “Ayə, mənim böyüklüyüm ondadır ki, təpəni dağ kimi tərənnüm edirəm... Sən dağı təpə eləyənlərdən qorx...”

Deməli, dahi şairimiz Səməd Vurğunun təbirincə desək, S. Rzasoy “Dağı təpə kimi göstərənlərdən yox, təpəni dağ kimi göstərənlərdəndir”. Əvvəldə qeyd etdim ki, S. Rzasoyu 21 ildən çoxdur ki, tanıyıram. Bu, o qədər böyük rəqəm olmasa da, Seyfəddini dərindən tanımağa bəs edib. Çünki S. Rzasoyu tanımaq üçün illər, aylar yox, hətta günlər də bəs edir. Onu yaxından tanımaq üçün mənə illər yox günlər lazlm olub və onun şərəfli həyat yoluna ətraflı bələd olmuşam...

S.Rzasoy 1 avqust 1961-ci ildə Biləsuvar rayonunun Bəydili kəndində anadan olub. O, 1977-ci ildə Bəydili kənd orta məktəbini, 1986-cı ildə isə N.Tusi adına ADPU-nu (o vaxtkı V.İ.Lenin adına APİ) bitirmişdir.S.Rzasoy bir müddət müəllimlik fəaliyyəti ilə məşğul olmuşdur. O, 1996-cı ildən AMEA-da çalışır**.** S.Rzasoy 1997-ci ildə “Nizaminin “Yeddi gözəl” mətnində dünya modeli və onun mifoloji qurumu” mövzusunda namizədlik dissertasiyasını müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır. 2010-cu ildən dosent, 2013-cü ildən filologiya elmləri doktorudur. 2019-cu ildə professor adını almışdır. O, hazırda AMEA Folklor İnstitutunda Mifologiya şöbəsinin müdiridir. Folklorşünaslıq, mifologiya, ritualşünaslıq və ədəbiyyatşünaslıq sahələri ilə baglı 19 kitabın, 300-dək məqalənin müəllifidir.

S.Rzasoyu tanıdığım bu illər ərzində onun çap olunmuş əsərlərinin əksəriyyətini oxumuşam. Bunun nəticəsi olaraq mən onu geniş elmi erudisiyaya, unikal fəhmə malik, Azərbaycan filoloji elmi tarixində özünəməxsus dəst-xətti ilə tanınan, xüsusi elmi və elmi-publisistik üsluba, hərtərəfli, zəngin elmi potensiala malik olan, məşğul olduğu sahələri professional səviyyədə və dərindən bilən dəyərli elm adamı kimi tanımışam.

Uzun illər boyu tanıdığım bu alimdə əksər elm adamlarında müşahidə etmədiyim fərqli bir cəhəti görmüşəm: orijinal və fenomenal düşüncə sahibi olan S.Rzasoy nədən yazırsa-yazsın, istər şifahi xalq ədəbiyyatından, istərsə də yazılı ədəbiyyatdan, fərqi yoxdur, onun yazılarında daim bir yenilik, bir novatorluq, yeni bir baxış bucağı, yeni bir istiqamət, ən yeni elmi terminalogiyaları məqamında elmi dövriyyəyətəqdim etmək bacarığı hiss olunur. Tədqiqatçı-alim Qalib Sayılov bu barədə belə yazır: "Alim (S.Rzasoy nəzərdə tutulur – T.O.) əsərlərində elmi dövriyyəyə terminoloji bazanın idxalı ilə də diqqəti çəkir. Bir vaxtlar hamı yazılarında yeri gəldi-gəlmədi xaos-kosmos münasibətlərindən yola çıxmaq istəyirdi. Bu konseptin də S.Rzasoy tərəfindən milli təfəkkürün mifoloji modeli kimi elmi dövriyyəyə hələ keçən əsrin 90-cı illərindən daxil edildiyinin şahidi oldum".

S.Rzasoyun folklorşünaslığın və ədəbiyyat tarixininin müxtəlif, eyni zamanda az öyrənilmiş sahələrinə marağı hər zaman müntəzəm və davamlı xarakter daşımışdır. O, həmişə aktual olan elmi məsələlər, problemlər barəsində də vaxtında və eyni zamanda orijinal fikirlər, mülahizələr söyləmək xüsusiyyəti ilə də həmişə diqqət mərkəzində olmağı bacarmışdır.

Seyfəddin Rzasoy, əsasən, Nizamişünaslığa, türk epos, ritual və mifologiyasına həsr olunmuş qiymətli tədqiqatları, eləcə də Oğuz mifi, onun strukturu, invariantları, arxetipləri məsələlələrinə həsr edilən dəyərli əsərləri ilə elmi ictimaiyyət arasında tanınır. Onun yaradıcılığında, xüsusilə Oğuz mifinin mətnlərinin tədqiqində daha çox struktur-semiotik tədqiqat metoduna üstünlük verilmişdir. Bu da ona Azərbaycan poetik düşüncəsinin struktur mexanizmlərini, funksionallaşma modellərini, gerçəkləşmə səviyyələrini, informativ təkamülünü uğurla bərpa etməyə imkan vermişdir.

Ümumiyyətlə, S.Rzasoy epik düşüncənin total inkişaf strukturunu onun diaxronik poetikası boyunca öyrənir. Bu baxımdan, araşdırmalarının obyektini mif, epos mətnlərindən tutmuş çağdaş bədii mətnlərəcən bütöv poetik düşüncə sistemi təşkil edir.

S.Rzasoy "İslam Ağayev: ömür və yaradıcılıq etüdləri" (Bakı: "Tural-Ə" NPM, 2002, 121 s.), "Nizami poeziyası: Mif-Tarix konteksti (Bakı: Ağrıdağ, 2003, 211 s.), "Oğuz mifinin paradiqmaları" (Bakı: Səda, 2004, 199 s.), "Yaddaş və şəxsiyyət" (Bakı: Səda, 2004, 130 s., M.Həkimovla birgə), "Oğuz mifi və ğuznamə eposu" (Bakı: Nurlan, 2007, 181 s.), "Folklorlaşan alim ömrü" (Bakı: Nurlan, 2007, 197 s.), "Mifologiya və folklor: nəzəri-metodoloji kontekst" (Bakı: Nurlan, 2008, 188 s.), "Azərbaycan folklorşünaslıq tarixi və Sədnik Paşa Pirsultanlı" (Bakı: Nurlan, 2008, 212 s.), "Mifologiya və folklor: nəzəri-metodoloji kontekst" (Bakı: Nurlan, 2008, 188 s.), "Oğuz mifologiyası (metod, struktur, re-

konstruksiya)” (Bakı: Nurlan, 2009, 363 s.), “Əbülqazi “Oğuznamə”sində mif və ritual” (Bakı: Nurlan, 2013, 172 s.), “Müasir Azərbaycan folklorşünaslığı”, (2 clilddə, I cild, Bakı: Nurlan, 2013, 364 s.); “Muğanlıda Novruz karnavalı” (Tiflis: Tbiliselebi, 2014, 103 s.), “Azərbaycan dastanlarında şaman-qəhrəman arxetipi” (Bakı: Elm və təhsil, 2015, 436 s.), “Ustad-namə” (Naxçıvan: Nuh, 2016, 107 s., R.Babayevlə birgə), “Əbülqazi “Oğuznamə”sinin ritual-mifoloji semantikası” (Mersin: MerAk, 2020, elektron kitab), ““Kitabi-Türkman lisani” oğuznaməsinin transmediativ strukturu və ritual-mifoloji semantikası” (Bakı: Elm və təhsil, 2020, 472 s.), “Müasir Azərbaycan folklorşünaslığı” (2 cilddə, II cild. Sənətkar, mətn və mühit məsələləri. Bakı: Elm və təhsil, 2020, 308 s.), “Nizami Gəncəvi: etnogenez və mifologiya” (Bakı: Elm və təhsil, 2021, 120 s.), “Nizaminin “Yeddi gözəl” poemasında mif, folklor və təsəvvüf” (Bakı: Elm və təhsil, 2021, 332 s.) kimi dəyərli kitabların müəllifidir.

…Məşhur türk yazıçısı və filosofu Cəmil Mericin belə bir fikri var: “Elə kitablar var ki, onları oxumaq və mütləq başqalarına da oxutmaq lazımdır...” S.Rzasoyun yazdığı kitablar məhz Cəmil Mericin haqqında bəhs etdiyi belə kitablardandır. Onun yazdığı kitab və çoxsaylı məqalələrdə folklorşünaslığın aşağıdakı problem-məsələlərinin həllinə çalışılmışdır:

1. Mif və ritual problemlərinin öyrənilməsi.

2. Mif və mərasimlərin öyrənilməsi – elmi ekspertizası, təsnifatı, sistemləşdirilməsi və tarixi-mədəni tipinin müəyyənləşdirilməsi, ritual sistemi şəklində bərpa edilməsi;

3. Miflərin diaxron strukturunun öyrənilməsi və Türk-Azərbaycan mifoloji düşüncə tarixinin transformasiya imkanlarının aşkara çıxarılması ilə onların mədəni-tarixi inkişafının izlənilməsi;

4. Mif-folklor probleminin bütün struktur səviyyələri üzrə tədqiq edilməsi, total Türk mifinin Azərbaycan folklorunun tarixi-mədəni baxımdan funksionallaşmasında rolunun aşkarlanması;

5. Mif mətnlərinin morfoloji strukturunun öyrənilməsi;

6. Türk mifologiyasının Oğuz mətn tipləri üzrə rekonstruksiya edilməsi: fərqli mətn tiplərinin struktur-semiotik analizi ilə mif paradiqmalarının müəyyənləşdirilməsi və bunların əsasında invariantın – mifoloji dünya modelinin bərpası;

7. Türk mifinin sintaqmatik və paradiqmatik funksionallıgının mümkün tarixi-mədəni strukturunun öyrənilməsi;

8. Mif-ritual probleminin türk milli düşüncə tipinin mətnləri əsasında araşdırılması;

9. Azərbaycan-türk mərasimi düşüncə sisteminin ifadə kodunun (təsvir dili və onu funksionallaşdıran semiotik vahidlər) bərpası: mərasimin məzmununu təşkil edən kosmoqonik informasiyanı reallaşdıran, söz və hərəkət vahidlərindən təşkil olunmuş "əlifba"nın müəyyənləşdirilməsi və semiotik təbiətinin öyrənilməsi;

10. Türk mifoloji düşüncə sisteminin ifadə kodunun təsviri;

11. Türk (Azərbaycan) ritual-mifoloji düşüncəsinin tarixi-mədəni paradiqmalarının (mif-din, ritual-din, mif-fəlsəfə, mif-ədəbiyyat və s.) öyrənilməsi;

12. Türk mifoloji düşüncə tərzinin çağdaş Azərbaycan milli düşüncə tərzinin formalaşmasına təsirinin tədqiqi: mifoloji arxetiplər və çağdaş milli düşüncə və s.

Bir məsələni qeyd edim. S.Rzasoyun "Muğanlıda Novruz karnavalı" adlı kitabı yuxarıda adları keçən kitablarından quruluş, eləcə də mövzu-mündəricə baxımından fərqlənir. Məlumdur ki, qədim bayramlarımızdan olan Novruz Azərbaycanda ən çox sevilən, xalqın maddi və mənəvi dəyərlərinin böyük bir hissəsini özündə əks etdirən mühüm mədəniyyət hadisəsidir. Hazırda milli bayram kimi qeyd olunan bu bayram çox dərin köklərə malikdir. Hərfi mənası "Yeni gün" olan Novruz bayramına müxtəlif dövrlərdə fərqli adlar verilmişdir. "Novruz" anlayışı bəzi deyiliş fərqlərilə bir çox türk xalqlarının dillərində işlənməkdədir: Azərbaycan türkcəsində Novruz (Noruz), Qırgız türkcəsində Noovruz, Özbək türcəsində Növroz, Başqırd türkcəsində Nevruz, Tatar türkcəsində Navruz, Uygur türkcəsində Noruz, Çuvaş türkcəsində Naurus, Başqırd türkcəsində Nevruz, Krım türkcəsində Nevrez, Qərbi Trakiya türkcəsində Nevriz, Qaqauz türkcəsində Babu Mata-Kürklü Marta və s. Burada Novruz anlayışının etimoloji mənası "Yeni il – ilbaşı" deyil, "Yeni gün" oldugu müəyyənləşdirilmişdir". Türkiyədə isə bu bayrama Gündönümü və ya Yılbaşı deyildiyi məlumdur.

Novruz bayramının əsasında əski xalq mərasimləri dayanır. Dünya xalqlarının bir çox mərasimləri də belədir. Onlardan bəzilərinə zamanla dini mahiyyət qazandırılır və beləliklə də, əski mərasim mədəniyyəti ilə dini adətlər birləşmiş olur. Bütün bunları dərindən bilən və Novruz bayramınınən qədim ritual-mifoloji köklərini, etnik-mədəni özünəməxsusluqlarını üzə çıxarmağı qarşısına məqsəd qoyan S.Rzasoy "Muğanlıda Novruz karnavalı" kitabında Gürcüstanın Sərtçala Muğanlı kəndində keçirilən Novruz bayramının ətraflı tədqiqinə nail olmuşdur.

Kitab Gürcüstanda – Azərbaycan türkləri yaşayan Sərtçala Muğanlı kəndində 2014-cü ildə keçəpapaqlar adlanan personajlann iştirakı ilə keçirilmiş Novruz karnavalının təsvir və təhlilindən bəhs edir. Əsər həm də, bir növ, səyahətnamə, yol təəssuratları xarakteri daşıyır: müəllifin keçəpapaqların sorağı ilə Gürcüstana gedərkən rastlaşdığı bir sıra hadisələrə, əhvalatlara və insanlara münasibətindən bəhs edilir.

Uzun inkişaf mərhələləri keçmiş səfər, yol təəssuratları, xatirələr – memuarlar Azərbaycan ədəbiyyatı tarixində bir neçə aspektdə meydana çıxmışdır. Bunlar “Səyahətnamə”, ”Səfər təssuratları”, “Yol qeydləri”, “Xatirələr” və başqa adlarla adlandırılsa da, burada sırf tarixi hadisələr əks olunsa da, onların böyük əksəriyyəti elmi, elmi-bədii, bədii-publistik üslublarda yazılır və belə əsərlər müəlliflərinin yaradıcılığında özünəməxsus yer tutur. Bu cür əsərlərin bir janr kimi ilk nümunələri qədim dövlərdən (XI-XII əslərdən) – Xaqani Şirvaninin öz xatirələrini, səfər təəssüratlarını qələmə aldığı “Töhfətül-İraqeyn”poemasından başlamışdır. Sonrakı əsrlərdə bu nümunələr daha da inkişaf etmiş və nəhayət, bir janr kimi XX əsrdə formalaşmış, ədəbiyyatımızda onların dəyərli nümunələri yaradılmışdır.

Hər bir xalqın folklorunun, ədəbiyyatının, mədəniyyətinin, adət-ənənələrinin və bayramlarının ən ciddi özünəməxsusluqlarına, xırdalıqlarına qədər tədqiqi, həm də eyni zamanda həmin xalqın tarixi keçmişini öyrənmək deməkdir. Çünki mədəniyyəti, ədəbiyyatı olmayan xalqın tarixi də ola bilməz. Bu baxımdan Azərbaycana, onun folkloruna, ədəbiyyatına, mədəniyyətinə, adət-ənənələrinə və bayramlarına həsr olunmuş əsərlərə, onları yaradan ayrı-ayrı nümayəndələrin yaradıcılığının tədqiqinə böyük ehtiyac var. Belə əsərlərdə cəmiyyətin iqtisadi-ictimai durumu ilə bərabər, sənətkarların öz şəxsiyyəti, dünyagörüşü, aktual hadisələrə münasibəti də əks etdirilir. Bu qəbil əsərlərdə müəlliflərin elmi, ədəbi-bədii potensialları, ümumiləşdirmələri, gəldiyi nəticələri ilə yanaşı, onların səfər təəssuratları, xatirələri də əhəmiyyətlidir və bir çox özəlliklərə malikdir. Əgər “Səyahətnamə”, ”Səfər təssuratları”, “Yol qeydləri”, “Xatirələr” tipli əsərlərdə müəllifin bəhs etdiyi hadisələr ən geniş təfsilatı ilə təsvir edilirsə, insanların şəxsiyyəti, surəti, xarakteri ilə yanaşı, özünün də obrazı, spesifik, fərdi xüsusiyyətləri də diqqət mərkəzində olursa, onda bu, əsər müəllifinin ikiqat uğuru kimi dəyərləndirilir və ona həm də bədii-estetik hadisə kimi baxılır.

S.Rzasoy *“Muğanlıda Novruz karnavalı”* kitabı da, təxminən, bu səpkili əsərlərdəndir. Müəllif əsər boyu bir əsas tezisi əsaslandırır: keçəpapaq fenomeni, onların iştirakı iləkeçirilən Muğanlı Novruz karnavalı istər Azərbaycan, istərsə də türk dünyası üçün unikal hadisə olub, Novruz bayramının ən qədim ritual-mifoloji köklərini, etnik-mədəni özünəməxsusluqlarını üzə çıxarmağa və bu bayrama yeni elmi kontekstlərdə yanaşmağa imkan verir.

Qeyd edim ki, əsl insana xas olan gözəl, nəcib insani sifətlərdən biri də sadəlik və təvazökarlıqdır. Sadə və təvazökar adamları isə hamı sevir və onlara hörmət edir. Belə adamlar heç vaxt özlərini başqalarından üstün tutmur, uğur və müvəffəqiyyətlərilə, qazandıqları nailiyyətlərlə, oxuduqları kitabların çoxluğu ilə, xalqa, vətənə göstərdikləri xidmətlərlə öyünmürlər. Əksinə, onların uğur və mü-

vəffəqiyyətləri artdıqca, onlar özlərini daha sadə aparır, həyatda qazandıqlarını, vətən və insanlar qarşısında etdiklərini az bilir, daha çox nailiyyətlər, uğurlar əldə etməyə çalışırlar. Sadə və təvazökar insanlar hamı ilə mehriban və səmimi rəftar edir, daha çox ünsiyyətcil və gülərüz olurlar. Onlar, demək olar ki, heç kimin xətrinə dəymir, ən qaraqabaq, ünsiyyətə meyli olmayan adamlarla da dil tapa bilirlər. Professor S.Rzasoy belə sadə, səmimi, gülərüz və təvazökar bir insandır.

**Haşiyə:** Mən onun haqqında "Novruzşünaslıqda yeni üfüqlər" kitabını yazıb, kitabın elektron variantını ona verəndə dedim ki, kitab hazırdır son varianta sən özün də bax. Vurğuladım ki, istəyirsən, özün haqqında lazım bildiyin qeydləri, əlavələri elə. Neçə-neçə alim haqqında kitablar yazan S.Rzasoy üçün bu, əslində, çox asan bir iş idi. O isə buna qəti etiraz etdi. Açığını deyim ki, ilk əvvəl inanmadım. Fikirləşdim ki, qeyri-adi istedadı olan, həm güclü elmi və həm də bənzərsiz publistik qələmi olan Seyfəddin müəllim bu kitaba hökmən özü haqqında nələrisə, hansısa epitet və təşbehləri əlavə edəcək, onu genişləndirəcək. Lakin bir neçə gündən sonra S.Rzasoyun mənə qaytardığı həmin kitabın elektron variantını oxuyanda çox təəccübləndim. O, mənim onun haqqında yazdığım kitabın elektron variantına özü haqqında bir cümlə belə əlavə etməmişdi...

Hər bir xalqın mövcudluğunun əsas göstəricisi olan milli-mənəvi dəyərlər, onun ən qiymətli sərvətidir. Hər bir xalq özünəməxsus, spesifik milli mənəvi dəyərlər sisteminə malikdir. Qlobal mənada bu milli-mənəvi dəyərlər hər bir xalqın, o cümlədən bizim xalqımızın da tarixi, dili, dini, adət-ənənələri, mentaliteti, elmi, mədəniyyəti, ədəbiyyat və incəsənətidir. Lokal anlamda isə milli-mənəvi dəyərlər keçmişə, xələflərə, ağsaqqala, böyük-kiçiyə ehtiram, öz milli "mən"ini yaşatmaq və ona hörmət etmək deməkdir. S.Rzasoy yaradıcılığının ana xəttində – leytmotivində dayanan bu mövzular onun yazdığı hər bir əsərdə bu və ya digər formada öz əksini tapır.

Azərbaycan filosofu Ə.Bəhmənyarın bir müdrik kəlamında deyilir: "Elə adamlar var ki, onlarla söhbət yaxşı kitab oxumağa bərabər olur..." Görkəmli alim, vətənimizi, xalqımızı, onun dilini, adət-ənənələrini ürəkdən sevən və əsl vətəndaş olan professor S.Rzasoy məhz belə ziyalılarımızdandır.

Həyatda düzlüyü, doğruluğu, sadəliyi, səmimiyyəti və zəhmətsevərliyi hər şeydən üstün tutan Seyfəddin müəllimin istər elmi yaradıcılığında, istərsə də publisistikasında onun əsl vətənpərvərliyi aydın görünür. S.Rzasoy o taylı-bu taylı Vətənimizin, dilimizin, elmimizin taleyinə narahat olan, ona biganə qalmayan, onu qorumağa və dünyaya tanıtmağa çalışan vətəndaş alim və əsl ziyalılarımızdandır. Bunlara görə Seyfəddin müəllimlə tanışlıq, onunla hər dəfə söhbət etmək,

onun fikirlərini dinləmək, Bəhmənyar demiş, sanki qiymətli bir kitab oxumağa bərabər olur...

**Haşiyə:** Dünyanın ən mədəni xalqlarından olan yaponlarda maraqlı bir adət var. *Vsevolod Ovçinnikov* **"Sakura budağı"** *kitabında yazır ki,* yaponlar qarşısında müsahibi olduğu insanın heç bir vaxt sözünü kəsməz və onun danışdığından tam xəbəri olsa belə, müsahibinə bunu bildirməz, "mən bunu bilirdim" deyə, xitab etməzlər. Bu, yaponlara görə, (elə məncə də, bütün ağıllı, müdrik insanlara görə – T.O.) böyük nəzakətsizlik, qəbahətli bir əməl sayılır. Bu anlamda Seyfəddin müəllimdə də bu adət var. Aydındır ki, hər bir insanda həm danışıq mədəniyyəti, həm də dinləmə mədəniyyəti omalıdır. Seyfəddin müəllimi tanıyanlar, onun dostları, yoldaşları bilirlər ki, o, hər sözü, hər cümləni yerli-yerində işlədən, bir fikirdən o birinə çox ustalıqla keçid edə bilən gözəl bir natiqdir. Buna sözüm yox. Bununla yanaşı, o, həm də çox gözəl dinləmə mədəniyyətinə malik olan bir insandır. O, söhbət zamanı müsahibinin sözünü kəsməz, onu axıradək dinləməyə çalışar. Sonda lazım bilərsə, ona münasibətini bildirər. Bir sözlə, çoxlarından fərqli olan yüksək intellekti, təfəkkürü ilə öyünməz, onu digərlərinin gözünə soxmağa çalışmaz. Ancaq vay o gündən ki, qarşısındakı müsahibi buna bənzər bir addım ata... Onda Seyfəddin müəllim 180 dərəcə dəyişər və qarşısındakı adamın layiqli, haqq etdiyi cavabını verər...

Bütün bu sadalananlar şərəfli bir ömür yaşamış S.Rzasoyun ömür salnaməsidir. Bu il gözəl insan, sədaqətli dost və dəyərli elm fədaisi olan Seyfəddin müəllimin 60 yaşı tamam olur. O, yaşadığı bu illəri gözəl və mənalı yaşamışdır. Ötən bu illər isə öz izini Seyfəddin müəllimin artıq ağarmış saçlarında, qiymətli kitab və məqalələrində, gördüyü xeyirxah əməllərində qoyub. O, yaşadığı həyatın hər günündən, hər ayından, hər ilindən mənalı və məhsuldar şəkildə istifadə edib. S.Rzasoyun yaradıcılıq məhsulları olan ədəbi irsi – onlarla kitabları, yüzlərlə məqalələri bunu deməyə əsas verir.

Məşhur italyan filosofu Seneka yazırdı: "Uzun ömür o ömürdür ki, o, yaxşı əməllərlə doludur... Hər həyat nemət deyil, ancaq mənalı yaşanmış həyat nemətdir". S.Rzasoyun yaşadığı 60 illik ömürdə gördüyü işlər, yazdığı kitab və məqalələr, əslində, bütöv bir əsrdə görülən işlərə bərabərdir.

Dünyanın ən qiymətli əxlaqi-didaktik kitablarından biri olan "Kəlilə və Dimnə"də belə bir fikir var: "İnsanı dünyanın sirlərinə vaqif edən dörd şeydir: "Hikmət, əql, təmkin və ədalət. Alimlik və savad – hikmətə; səbr və mərhəmət – əqlə; alicənablıq və özünü ələ almaq – təmkinə; doğruluq və xeyirxah işlər görmək isə ədalətə daxildir". Bu insani keyfiyyətlərin hər biri çox gözəldir. Ancaq bu keyfiyyətlərin hamısı bir insanda toplandıqda o, kamil və müdrik bir insana

çevrilir. Mənim tanıdığım Seyfəddin müəllimdə bu keyfiyyətlərin hamısı toplanıb desəm, yəqin ki, onu tanıyan insanlar mənim sözlərimə şübhə etməzlər. Ona görə də S.Rzasoy həm kamil, həm də müdrik bir insandır. Bu bir reallıq, bu bir təkzibolunmaz bir həqiqətdir. Həqiqətin isə ancaq və ancaq bir üzü olur...

**Son söz əvəzi:** Bir dəfə mənimlə söhbətlərinin birində sözarası Seyfəddin müəllim mənə əslən Ərdəbildən olduğunu və şəcərəsinin Sah İsmayıl Xətainin qızılbaşlarından gəldiyini söylədi. Bu sözləri deyəndə onun üzünə diqqət yetirdim. Çöhrəsində qürur və böyük bir əzəmət duyulurdu. Ancaq mən onun gözlərinə baxanda nədənsə mənə elə gəldi ki, bu gözlərin dərinliyində gizli bir nisgil də var...

Əziz Seyfəddin müəllim, Ulu Yaradandan arzu edirəm ki, sənin 70 illik yubileyini ata-baba yurdun olan Ərdəbildə keçirək!

**Tahir ORUCOV**
**AMEA Folklor İnstitutu,**
**Filologiya üzrə fəlsəfə doktoru, dosent**

*Daxilolma tarixi: İlkin variant 03.05.2021*
*Son variant 21.05.2021*